ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 03 (252) mart 2025

# Ədliyyə naziri Fərid Əhmədov Mentorluq proqramı çərçivəsində müsabiqə qalibləri ilə görüşüb



**Ədliyyə naziri Fərid Əhmədov "Yüksəliş" müsabiqəsinin Mentorluq proqramı çərçivəsində dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Eyyub Fətəliyev və Rüfət Məmmədxanlı ilə görüşüb.**

Fərid Əhmədov qalibləri müsabiqədə əldə etdikləri uğur münasibətilə təbrik edib, müsabiqənin onların gələcək inkişafında önəmini vurğulayıb. Görüşdə ədliyyə sahəsində görülmüş işlər, həyata keçirilən islahatlar fonunda yarana biləcək çətinliklər və real imkanlar, qarşıda duran hədəflər və bu sahədə çağırışlar barədə söhbət aparılıb.

Nazir mentorluq proqramı çərçivəsində öz təcrübə və biliklərini bölüşəcəyini və gələcək rəhbər şəxslər kimi qaliblərin potensiallarının daha da inkişaf etdirilməsi üçün köməklik göstərəcəyini bildirib. Fərid Əhmədov qaliblərin fikirlərini dinləyib, mentorluq proqramı çərçivəsində görüləcək işləri qeyd edib, birillik fərdi inkişaf planının icrasından bəhs edib.

Nazir görüşdə həmçinin vurğulayıb ki, qaliblərin mentorluq proqramını yüksək səviyyədə həyata keçirməsi üçün Ədliyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılacaq.

Müsabiqə qalibləri Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri üzrə müxtəlif sahələrə maraq göstərdiklərini bildirib, bu istiqamətlərdə bilik və bacarıqların əldə edilməsində mentorluq proqramının onlar üçün faydalı olacağını vurğulayıblar.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsis edilib. Müsabiqənin qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı ilə təmin olunur və 20 min manatlıq mükafat qazanırlar.

Beşinci "Yüksəliş" müsabiqəsinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 18 dekabr 2024-cü il tarixində müvafiq Sərəncam imzalayıb.

# Milli Məclisin deputatları Ədliyyə Nazirliyinin Probasiya xidmətində olublar

**Martın 17-də Azərbaycan Respublikası Milli Məclisinin bir qrup deputatı ilə Ədliyyə Nazirliyinin Probasiya xidmətində görüş keçirilib.**

Tədbirdə xidmət əməkdaşları ilə yanaşı Nazirliyin məsul şəxsləri, Bakı Probasiya İdarəsinin icra məmurları, Bakı Dövlət Universiteti və Azərbaycan Universitetinin könüllüləri, vətəndaş cəmiyyətinin nümayəndələri də iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan xidmət rəisi Vüqar Ağayev ədliyyə, o cümlədən probasiya sahəsində aparılan islahatlardan, sahə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsindən, probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyası və reabilitasiyasından, ali təhsil müəssisələri, dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə əlaqələrdən, müasir dövrün çağırışları ilə bağlı məsələlərdən, habelə probasiya sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsindən bəhs edib.





Görüşdə Mill Məclisinin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc çıxış edərək son dövrlərdə ədliyyə sistemində, Probasiya xidmətində həyata keçirilən işlərdən, ölkəmizdə alternativ cəzaların tətbiqi, bəzi cinayət əməllərinin dekriminallaşdırılması məsələlərindən danışıb, məhkumların hüquqlarının təmin olunması, probasiya sahəsində qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması, xüsusilə probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyası və reabilitasiyası ilə bağlı görülən multidissiplinar fəaliyyətin vacibliyini qeyd edib.

Tədbirdə Probasiya xidmətinin fəaliyyəti ilə bağlı video-çarx nümayiş etdirilib, o cümlədən məhkumların sosial adaptasiyası və reabilitasiyası sahəsində könüllülərin (sosial işçilər və psixoloqlar) təqdimatları olub, Rəqəmsal monitorinq mərkəzinin təcrübəsi ilə tanışlıq həyata keçirilib. Bu sahəyə cəlb olunan könüllülərin təqdimatları, problemlərə elmi yanaşmalar və onlar tərəfindən aparılan tədqiqatlar müsbət qiymətləndirilib.

Görüşdə, həmçinin probasiya haqqında qanunvericiliyin təkmilləşdirilməsi, konseptual sənədlərin işlənib hazırlanması, xüsusilə Probasiya haqqında Qanunun qəbul edilməsinin əhəmiyyəti vurğulanıb.

Sonda deputatlar və tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Notariat fəaliyyəti sahəsində beynəlxalq təcrübə öyrənilir

**Ədliyyə Nazirliyi və Azərbaycan Notariat Palatasının əməkdaşlarından ibarət nümayəndə heyəti Estoniya Respublikasında işgüzar səfərdə olub.**

Səfər çərçivəsində Estoniya Notariat Palatasında, notariat ofislərində və beynəlxalq ekspertlərin iştirakı ilə müxtəlif görüşlər keçirilib.

Görüşlərdə notarius və notarius köməkçilərinin hazırlanması, seçilməsi, ixtisaslarının artırılması və elektron notariat sistemlərinin funksionallıqları üzrə Estoniya təcrübəsinə dair təcrübə və fikir mübadiləsi aparılıb.

Səfər zamanı Estoniyanın Elektron Hökümət Mərkəzində də görüş keçirilib və göstərilən xidmətlərin rəqəmsallaşma imkanları barəsində təcrübə mübadiləsi aparılıb.

Həmçinin Azərbaycan nümayəndə heyəti və Estoniya Notariat Palatası arasında notariat fəaliyyəti üçün aktual olan digər məsələlər və əməkdaşlığın perspektivləri müzakirə olunub.







Səfər çərçivəsində Almaniyanın Martin Lüter adına Halle-Vittenberg Universitetinin professoru Azər Əliyev, Estoniyanın Tallin Texnologiya Universitetinin professoru Tomas Hofman və Almaniyada fəaliyyət göstərən notarius Vladimir Primaçenko ilə notariatın inkişaf istiqamətləri üzrə hibrid formatda müzakirələr aparılıb.

İşgüzar səfərdə Azərbaycan nümayəndə heyətinin tərkibində Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsinin rəisi Elşad Məmmədli, baş idarənin rəis müavini Seymur İsmayılov, baş idarənin aparıcı məsləhətçisi Fatimə Dəmirli, Nazirliyin Rəqəmsallaşma və innovasiyalar idarəsinin rəis müavini Qismət Qurbanov və Azərbaycan Notariat Palatasının sədri Hüseyn Məmmədov təmsil olunub.

# Ədliyyə Nazirliyi yeni seçilmiş bələdiyyə üzvləri üçün seminar-müşavirə təşkil edib



**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi tərəfindən sonuncu seçkilərdən sonra formalaşmış Bakı bələdiyyələrinin və Bələdiyyələrin Milli Assosiasiyalarının nümayəndələrinin iştirakı ilə seminar-müşavirələr keçirilib.**

Tədbirlərdə Ədliyyə Nazirliyinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 2024-cü il üzrə illik məruzəsinin Milli Məclisdə müzakirəsi zamanı yerli özünüidarəetmənin problemləri ilə bağlı deputatlar tərəfindən qaldırılmış məsələlər müzakirə olunaraq onların icrası istiqamətində tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Eyni zamanda, bələdiyyələrin hüquqi maarifləndirilməsi və onlara fəaliyyətlərinin qanunauyğun qurulmasına metodoloji köməklik göstərilməsi üzrə tədbirlər barədə ətraflı məlumat verilərək belə tədbirlərin mütəmadi davam etdirilməsindən bəhs olunub.

Tədbirlərdə bələdiyyə üzv və qulluqçularında antikorrupsiya davranış modelinin formalaşdırılması, korrupsiyaya qarşı mübarizə və maraqların toqquşması sahəsində təqdimatlar edilərək, korrupsiya hüquq pozuntuları, korrupsiya hüquq pozuntularının subyektləri, bu pozuntuların törədilməsinə görə qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyət tədbirləri, bələdiyyə üzv və qulluqçularının etik davranış qaydaları barədə ətraflı məlumat verilib.

Bununla yanaşı, yerli özünüidarəetmənin mahiyyətinə uyğun olaraq yerli əhali ilə sıx təmasların, bələdiyyələrin fəaliyyəti barədə əhalinin mütəmadi məlumatlandırılmasının və onların fəaliyyətinin mediada işıqlandırılmasının əhəmiyyəti, beynəlxalq əməkdaşlıq sahəsində əlaqələrin gücləndirilməsi, yerli vergilərin yığılması ilə bağlı qanunvericiliyin tələbləri və s. məsələlər də müzakirə olunaraq bu istiqamətdə bir sıra tövsiyələr verilib.

Sonda bələdiyyələr tərəfindən səsləndirilən məsələlər üzrə fikir mübadiləsi aparılıb və təkliflər dinlənilib.

# Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin məhkəmə ekspertizası idarələrinin görüşü keçirilib

**Mart ayının 3-də Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin məhkəmə ekspertizası idarələrinin rəsmi təmsilçilərinin görüşü keçirilib.**

Onlayn keçirilən görüşdə TDT üzv dövlətlərin məhkəmə ekspertizası idarələrinin rəsmi təmsilçilərinin iştirakı ilə yaradılan işçi qrupun məqsəd və vəzifələri, məhkəmə ekspertizası idarələri arasında əməkdaşlığın mövcud vəziyyəti müzakirə olunub. Məhkəmə ekspertizası sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, tədqiqat metodlarının unifikasiyası, sertifikatlaşdırılması və standartlaşdırılması prioritet vəzifələr kimi qeyd olunaraq koordinasiyalı və səmərəli fəaliyyətin təmin edilməsi məqsədilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin məhkəmə ekspertizası idarələrinin şəbəkəsinin yaradılmasının vacibliyi müzakirə olunub.

Mərkəzləşdirilmiş formada təşkil olunacaq fəaliyyətin bütün tərəfdaşlar üçün faydalı olacağına, o cümlədən üzv qurumların beynəlxalq standartlar üzrə akkreditasiyasına töhfə göstərəcəyinə, qurumlar arasında həyata keçirilən tədbirlərin səmərəliliyini və keyfiyyətini artırmağa imkan verəcəyinə inam ifadə olunub.

Görüşdə müvafiq sənəd layihələrinin hazırlanması və tövsiyə ilə bağlı aidiyyəti orqanlar qarşısında məsələ qaldırılması qərara alınıb.



# Məhkəmə ekspertizası sahəsində beynəlxalq əlaqələr genişləndirilir

**"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Özbəkistan Respublikası Ədliyyə Nazirliyi yanında H.Sulaymanova adına Respublika Məhkəmə Ekspertizası Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol"un icrası ilə bağlı martın 3-də onlayn formatda görüş keçirilib.**

Görüşdə məhkəmə ekspertizası idarələrinin rəisləri və rəis müavinləri, struktur bölmələrin rəhbərləri iştirak edib.

Görüş zamanı məhkəmə ekspertizası sahəsinin təkmilləşdirilməsi və müasirləşdirilməsi üzrə görülən tədbirlər barədə məlumat verilib, Ədliyyə Nazirliyi ilə bir sıra dövlətlərin, o cümlədən Gürcüstan, Ukrayna, Qırğızıstan,




Belarus, Qazaxıstan, Özbəkistan və Türkiyə dövlətləri arasında məhkəmə ekspertizası sahəsində səmərəli əməkdaşlıq və imzalanmış sazişlərin əhəmiyyəti vurğulanıb.

Mərkəzin rəisi Elşən Albəndov çıxışında məhkəmə ekspertizası sahəsində beynəlxalq əməkdaşlığın xüsusi rolunu vurğulayaraq, belə tədbirlərin səmərəli fikir mübadiləsinə və ən yaxşı təcrübələrin bölüşməsinə geniş imkanlar yaratdığını, məhkəmə ekspertizası və kriminalistikanın müasir metod və vasitələrindən fəal istifadə etmək yolu ilə cinayətkarlığa qarşı mübarizənin möhkəmləndirilməsinə mühüm töhfə verdiyini qeyd edib.

Sonda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Özbəkistan Respublikası Ədliyyə Nazirliyinin H.Sulaymanova adına Məhkəmə Ekspertizası Mərkəzi arasında 2025-2027-ci illərə dair Tədbirlər Planı imzalanıb.

# Ədliyyə Akademiyasının Elmi Şurasının geniş iclası keçirilib



**Martın 4-də Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının ali idarəetmə orqanı olan Elmi Şurasının geniş iclası keçirilib. İclasda Akademiya tərəfindən 2024-cü ildə görülən işlər, qarşıda duran vəzifələr müzakirə edilib.**

İclasda Elmi Şuranın üzvləri - Ədliyyə Akademiyasının rektoru Şahin Əliyev və Akademiyanın digər əməkdaşları, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Vüqar Həsənov, Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri, Hakimlərin Seçki Komitəsinin üzvü Kərəm Mansurov, Ədliyyə Nazirliyinin Strateji planlaşdırma və monitorinq baş idarəsinin rəisi Ceyhun Tağıyev, Beynəlxalq əməkdaşlıq baş idarəsinin rəisi Adil Əbilov, Probasiya Xidmətinin Sosial adaptasiya və reabilitasiya şöbəsinin rəisi Səyyad Məcidov, Azərbaycan Respublikası Baş Prokurorluğun Elmi-Tədris Mərkəzinin rəisi Talıb Cəfərov, Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri Şəhla Səmədova, Universitetin Əmək hüququ və Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedralarının professorları Mayis Əliyev və Xəyyam İsmayılov iştirak ediblər.

Akademiyanın rektoru Şahin Əliyev iclası giriş sözü ilə açaraq gündəlikdə duran məsələləri şura üzvlərinin nəzərinə çatdırıb.

İclasda Akademiyanın məsul əməkdaşı Gülzar Nəsibova hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2024-cü ildə 9703 nəfər ədliyyə işçisi, vəkil, hakim, məhkəmə aparatı işçisi, hüquqşünas, habelə bələdiyyə üzvü və qulluqçusu Akademiyada tədrisə cəlb olunub.

Bununla yanaşı, Akademiyada fəaliyyət göstərən Hüquqi təminat bölməsi tərəfindən 250-dən çox aztəminatlı şəxsə pulsuz hüquqi yardım göstərilib.

Ötən il, həmçinin Ədliyyə Akademiyasının digər xarici dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri genişləndirilərək səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilib. Türk Ədliyyə Təlimi Şəbəkəsinə həmsədrlik çərçivəsində "Türk dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda keçirilən Beynəlxalq Konfransın həmtəşkilatçılığı həyata keçirilib, Türkiyə Respublikasında Balıkəsir Universitetində "İnzibati hüquq və İnzibati mühakimə, ISALAJ 2024" Beynəlxalq Konfransında və Rusiya Federasiyasının Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən XII Peterburq Beynəlxalq Hüquq Forumunda iştirak edilib.

İclasda hakimlərin və hakimliyə namizədlərin tədrisi prosesində göstərdikləri səmərəli fəaliyyətə görə bir qrup şəxslər təltif ediliblər.

Daha sonra görülən işlərə dair müzakirələr aparılıb. Müzakirələr zamanı çıxış edənlər görülən işlərlə yanaşı, fəaliyyətin səmərəliliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələrdən danışıblar. Diqqətə çatdırılıb ki, bundan sonra da Akademiyanın tədris prosesi ən müasir metodika və üsullar tətbiq olunmaqla daha da təkmilləşdirilməli, proqramlara daha aktual və praktikadan irəli gələn mövzuların daxil edilməsinin əhatəsi genişləndirilməlidir.

İclasda, həmçinin Elmi Şuranın gündəliyinə daxil olan təşkilati, kadr və digər məsələlərə baxılıb.

# Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində tələbələr üçün simulyasiya təlimi keçirilib

**Mart ayının 17-də Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində Milli Aviasiya Akademiyasının hüquq ixtisası üzrə təhsil alan tələbələri üçün simulyasiya xarakterli təlim keçirilib.**

"İqtisadiyyat və hüquq" fakültəsinin IV kurs tələbələrinin praktiki biliklərə yiyələnməsi məqsədilə təşkil edilən təlim "Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyəti ilə tanışlıq" mövzusunu əhatə edib.

Təlim zamanı tələbələr Mərkəzin laboratoriyalarında iş prosesi, tədqiqatda istifadə olunan cihaz və avadanlıqlarla tanış olmaqla yanaşı, maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparıblar.





# "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq Yol Xəritəsi təsdiq edilib

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən rəhbərliyi həyata keçirilən "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi işçi qrupu"nun 2025-ci il üzrə əsas hədəflərini əks etdirən Yol Xəritəsi təsdiq edilib.**

Komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifov tərəfindən təsdiq edilən Yol Xəritəsi biznes mühitinin əlverişliliyinin artırılması və ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması üzrə həm qanunvericilik, həm də təşkilati tədbirləri əhatə edir.

Yol Xəritəsinin icrası çərçivəsində cari il ərzində icra sənədi üzrə icraatın effektivliyinin artırılması məqsədilə borclunun üçüncü şəxslərə qarşı pul tələbinə tutmanın yönəldilməsi, "Borcluların reyestri" informasiya sisteminin yaradılması, daşınmaz əmlak üzərində hüquqlara dair aktual məlumatların "Elektron icra" informasiya sisteminə inteqrasiya əsasında tam ötürülməsi, icra sənədinin icrası zamanı inkasso sərəncamlarının icrası qaydasının təkmilləşdirilməsi və digər islahatların aparılması planlaşdırılır.

Bununla yanaşı, kommersiya mübahisələri üzrə verilmiş apellyasiya şikayətlərinə baxılması müddətlərinin uzanmasına təsir edən faktorların müəyyənləşdirilməsi, təxirə salınmış məhkəmə iclasları arasındakı müddətlərin tənzimlənməsi və məhkəmə, icra və mediasiya sahəsində statistikanın aktuallığının təmin edilməsi ilə bağlı işlərin görülməsi gözlənilir.

Yol Xəritəsində özəl sektor nümayəndələri, o cümlədən konsaltinq şirkətləri və biznes assosiasiyalarının qarşılaşdıqları çətinliklərin öyrənilməsi və onlara müvafiq köməklik göstərilməsi məsələsinə də xüsusi diqqət yetirilib. Bu məqsədlə ayda bir dəfə tematik mövzular üzrə birgə görüşlərin keçirilməsi və müzakirələrin aparılması nəzərdə tutulub.

"Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi"nin tam mətni ilə Komissiyanın internet portalında tanış olmaq mümkündür.

Xatırladaq ki, Azərbaycan Respublikası Biznes mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi işçi qrupu"na rəhbərliyi ədliyyə nazirinin müavini Toğrul Hüseynov həyata keçirir.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Naxçıvan Regional Voleybol Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.03.2025-ci
**Qeydiyyat N-si:** 640025-NQ15-162
**Maliyyə ili:** 1 yanvar - 31 dekabr
**Ünvan:** Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 110
**Fəaliyyət ərazisi:** Naxçıvan Muxtar Respublikası
**Fəaliyyət predmeti və məqsədi:** Azərbaycan Voleybol Federasiyasının fəaliyyət istiqamətlərini əsas götürməklə Naxçıvan Muxtar Respublikasında voleybol idman növünü inkişaf etdirmək, Naxçıvanı təmsil edən komandaların ölkə çempionatlarında iştirakını təmin etmək, milli komandalara müxtəlif yaş kateqoriyaları üzrə perspektivli idmançılar hazırlayaraq təqdim etmək
**Qanuni təmsilçi:** Əliyev Vüqar İsmayıl oğlu

### "Kür-Xəzər" Xeyriyyə ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.01.1993-cü il
**Qeydiyyat N-si:** 294
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Kərimov Akif Meybulla oğlu olmuşdur
**Dəyişiklik:** 03.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.11.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q81-4125
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyev Vəfa Lətif oğlu olmuşdur
**Dəyişiklik:** 04.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Bakı Kəndlər Futbol Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.08.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2193
Konfransın protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Davudov Vaqif Cəlil oğlu olmuşdur
**Dəyişiklik:** 07.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Alman-Azərbaycan Xarici Ticarət Palatası" hüquqi şəxslərin ittifaqı

**Qeydiyyat tarixi:** 02.07.1999-cu il
**Qeydiyyat N-si:** 1151
İdarə heyətinin qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Almaniya Federativ Respublikasının vətəndaşı Nargis Wieck olmuşdur
**Dəyişiklik:** 10.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Hüquq Dünyası" Hüquqi Təbliğat ictimai birliyi

**Qeydiyyat tarixi:** 21.10.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q5-1921
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyev Zaur Yunis oğlu olmuşdur
**Dəyişiklik:** 10.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2012-ci il
**Qeydiyyat N-si:** 1112-Q43-3131
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əsgərova Venara Yusif qızı olmuşdur
**Dəyişiklik:** 10.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Regional Sosial Təşəbbüslərə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.09.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q77-3949
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Mahalov Emil Vəli oğlu olmuşdur
**Dəyişiklik:** 10.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Gəncə Sahibkar Qadınlar" ictimai birliyi

**Qeydiyyat tarixi:** 17.08.2001-ci il
**Qeydiyyat N-si:** 1358
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Ağayeva Zenfira Hüseyn qızı olmuşdur
**Dəyişiklik:** 11.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Buta" xüsusi qayğıya ehtiyacı olan uşaqlara və yeniyetmələrə dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q64-3605
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Ağamalı Günay Fəzail qızı olmuşdur
**Dəyişiklik:** 11.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Miqrasiya Sahəsinin İnkişafı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.06.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q58-3482
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Fətullayev Vidadi Bayram oğlu olmuşdur
**Dəyişiklik:** 12.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### "Ekosfera" ekoloji-sosial mərkəz ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.12.1999-cu il
**Qeydiyyat N-si:** 1226
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Sultan-zadə Firuzə Vəhdət qızı olmuşdur
**Dəyişiklik:** 14.03.2025-ci il tarixdə qeydiyyata alınıb

### ELAN

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 1 iyul 1996-cı il tarixli 1111-QK2-0002 nömrə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Dəmir Yolları" QSC-nin "Həkim-Sanitar Xidməti" 01.01.2025-ci il tarixdən ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra altmış gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilmiş ünvana bildirsinlər: AZ1010. Dilarə Əliyeva küçəsi, 230 / "Azərbaycan Dəmir Yollari" QSC

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 1 mart 2016-cı il tarixli 1116-QK6-0023 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutu ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra altmış gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilmiş ünvana bildirsinlər: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 30

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 28 dekabr 2005-cı il tarixli 1105-Q7-1954 nömrə ilə dövlət qeydiyyatına alınmış "Şəffaflıq - Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra altmış gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilmiş ünvana bildirsinlər: Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, Badamdar şosesi 6.

**Təsisçi:**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:**
Rasim Həsənov

**Ünvan:**
Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1.
Tel: 537-06-40

Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur.
Qəzet ayda bir dəfə çıxır.

Reyestr N 769